| | |
|---|---|
| **AKTIN NÖVÜ** | Qanunlar |
| **QƏBUL EDİLDİYİ TARİX** | 22.10.2019 |
| **QEYDİYYAT NÖMRƏSİ** | 1685-VQD |
| **ADI** | “Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında” və “Əmək pensiyaları haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə |
| **RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ** | Azərbaycan Qəzeti (Dərc olunma tarixi: 13-11-2019, Nəşr nömrəsi: 251), Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Dərc olunma tarixi: 30-11-2019, Nəşr nömrəsi: 11, Maddə nömrəsi: 1691) |
| **QÜVVƏYƏ MİNMƏ TARİXİ** | 13.11.2019 |
| **AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU** | 340.180.060<br>080.020.000 |
| **HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ** | 12201910221685 |
| **HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX** | 14.11.2019 |

**“Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında” və “Əmək pensiyaları haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq, “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 12 oktyabr tarixli 1280-VQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

**Maddə 1.** “Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, 5, maddə 399; 2001, 12, maddə 736; 2005, 8, maddə 692, 10, maddə 872; 2006, 12, maddə 1007; 2008, 6, maddə 462, 11, maddə 960; 2011, 2, maddə 71; 2013, 12, maddə 1491; 2015, 2, maddə 73; 2016, 3, maddə 415; 2017, 5, maddə 686; 2019, 1, maddə 33) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2-ci maddədə “Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq surətdə yaradılmış digər qoşun birləşmələrində” sözləri “hərbi xidmət nəzərdə tutulmuş digər dövlət orqanlarında (dövlət orqanlarının strukturuna daxil olan qurumlarda)” sözləri ilə əvəz edilsin;

1.2. 7-ci maddənin ikinci hissəsindən “və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış qoşun birləşmələrinin” sözləri çıxarılsın və həmin hissəyə “idarələri,” sözündən sonra “hərbi xidmət nəzərdə tutulmuş digər dövlət orqanları (dövlət orqanlarının strukturuna daxil olan qurumlar),” sözləri əlavə edilsin.

**Maddə 2.** “Əmək pensiyaları haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, 3, maddə 208, 12, maddə 1019; 2007, 12, maddə 1194; 2008, 4, maddə 254, 6, maddə 464, 7, maddə 602, 8, maddələr 699, 710; 2009, 6, maddələr 395, 399, 11, maddələr 877, 879; 2010, 7, maddə 579; 2011, 4, maddə 267, 6, maddə 465, 7, maddə 597, 12, maddə 1109; 2012, 11, maddələr 1037, 1044; 2013, 3, maddə 223, 5, maddə 485, 6, maddələr 608, 614; 2015, 5, maddə 494; 2017, 5, maddə 676, 7, maddə 1289, 10, maddə 1776, 12 (I kitab), maddə 2193; 2018, 5, maddə 865, 12 (I kitab), maddə 2504; 2019, 2, maddə 205, 3, maddə 380, 5, maddələr 805, 808; Azərbaycan Respublikasının 2019-cu il 12 iyul tarixli 1650-VQD və 1661-VQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 1.0.3-cü maddədə “, Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanlarında və Azərbaycan Respublikasının qanunvericiliyi ilə yaradılmış digər silahlı birləşmələrdə” sözləri “və hərbi xidmət nəzərdə tutulmuş digər dövlət orqanlarında (dövlət orqanlarının strukturuna daxil olan qurumlarda)” sözləri ilə əvəz edilsin;

2.2. 21.2.3-cü maddəyə “müvafiq icra hakimiyyəti orqanlarında” sözlərindən sonra “və hərbi xidmət nəzərdə tutulmuş digər dövlət orqanlarında (dövlət orqanlarının strukturuna daxil olan qurumlarda)” sözləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 22 oktyabr 2019-cu il
1685-VQD